Unicapital
Hədsiz İmkanlar

**UC – PO – 113**
**16.09.2024**

**Azərbaycan Respublikasının Mərkəzi Bankına**

Bildiririk ki, 24.08.2024-cü il tarixində müştərimiz "Unibank" KB ASC (bundan sonra emitent) yerləşdirilməsi nəzərdə tutulan qiymətli kağızlar üzrə mövcud və ya əmələ gələ biləcək risklər barədə təhlilin aparılması və bunun nəticələri barədə məlumat verilməsi məqsədilə Cəmiyyətimizə müraciət etmişdir.

Mərkəzi Bankın 31 avqust 2021-ci il tarixli 23/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya şirkətləri və banklar tərəfindən investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi Qaydası"nın 6.4-cü bəndinə əsasən, Cəmiyyətimizin Anderraytinq şöbəsinin əməkdaşı Ələskərov Əli tərəfindən aparılmış mövcud və ya əmələ gələ biləcək risklər barədə təhlili təqdim edirik: "Unibank KB" ASC pərakəndə və biznes bankçılığı istiqamətində ixtisaslaşmış bankdır. Bankın risk təhlilinin həyata keçirilməsi üçün prudensial hesabata əsaslanan əsas maliyyə göstəricilərindən istifadə olunaraq əmsallar çıxarılmışdır.Təhlilin aparıldığı dövr üçün (30.09.2023-31.08.2024) likvidlik əmsalı kifayət qədər yaxşıdır və artan tendensiya müşahidə olunur. Eyni zamanda bankın ROA və ROE əmsallarıda qənaətbəxşdir. Ümumilikdə Cəmiyyət mənfəətinə, depozit və kredit portfelinə əsasən ölkəmizin əsas bankları arasında yer alır. Xalis mənfəətinə görə 2023-cü ilin sonuna, 32.9 mln azn mənfəətlə 7-ci yerdə qərarlaşmışdır və bu göstəricinin bu il üçün daha da yüksək olacağını proqnozlaşdırmaq olar.

**Hörmətlə,**

**Anderraytinq şöbəsinin əməkdaşı** **Əli Ələskərov**

**Baş Direktor** **Vüqar Namazov**

unicapital

Faktiki ünvan:
"Azure" Business Center,
8 Noyabr pr. 15,12-ci mərtəbə 72-ci ofis
Bakı, Xətai r-nu, AZ1025

VÖEN (Tax İN): 1401258741
info@unicapital.az
www.unicapital.az
Tel: +99412 541 33 33

Hüquqi ünvan:
Rəşid Behbudov küç., ev55,
məhəllə 384
Bakı, AZ 1014